

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 72-73
(7400-7401) Cümə, 25 noyabr 2016-cı il. Qiyməti 40 qəpik


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

*Prezident İlham Əliyev Dubay Ticarət və Sənaye Palatasının sədri Məcid Saif Al Qurairi qəbul edib.*

*Görüşdə biznes, turizm, Azərbaycan kənd təsərrüfatı məhsullarının Birləşmiş Ərəb Əmirliklərinə ixrac imkanları, viza rejiminin daha da sadələşdirilməsi, sərmayə qoyuluşu ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

* * *

*Prezident İlham Əliyev Dünya Xəbər Agentliklərinin V Konqresinin iştirakçılarının bir qrupunu qəbul edib.*

*Görüşdə Dünya Xəbər Agentliklərinin V Konqresinin iştirakçıları ilə canlı dialoq şəklində bir sıra məsələlər barədə fikir mübadiləsi aparılmışdır.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də ABŞ-ın yeni seçilmiş Prezidenti Donald Trampa telefonla zəng edib.*

*ABŞ-ın yeni seçilmiş Prezidenti Donald Tramp göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Donald Tramp qeyd edib ki, Prezident İlham Əliyev haqqında çox xoş sözlər eşidib və dövlətimizin başçısına fəaliyyətində uğurlar arzulayıb.*

*ABŞ-ın yeni seçilmiş Prezidenti Donald Tramp Prezident İlham Əliyevdən Azərbaycan xalqına salamlarını və ən xoş arzularını çatdırmağı xahiş edib.*

* * *

*Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin "Rəşid Behbudov" sürətli sərnişin gəmisi, "Gəncə" tankeri və "Qafur Məmmədov" quru yük gəmisinin istismara verilməsi mərasimi olub.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.*

* * *

*Prezident İlham Əliyev Rusiya Federasiyası Dövlət Dumasının beynəlxalq məsələlər komitəsinin sədri Leonid Slutskini qəbul edib.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin, o cümlədən parlamentlərarası əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.*

* * *

*Prezident İlham Əliyev noyabrın 21-də TOTAL şirkətinin baş icraçı direktoru Patrik Puyanneni qəbul edib.*

*Görüşdə əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## İpəkçiliyin və fındıqçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə kənd təsərrüfatının ənənəvi sahələrindən olan ipəkçiliyin və fındıqçılığın inkişafının sürətləndirilməsi, bu sahələrin potensial imkanlarından səmərəli istifadə edilməsi və məhsul istehsalına əhalinin marağının artırılması məqsədi ilə qərara alıram:

1. Barama toxumlarının, tut (çəkil) tinglərinin və fındıq pöhrələrinin tədarük edilməsi və məhsul istehsalçılarına əvəzsiz verilməsi məqsədi ilə "Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 2 mart tarixli 1081 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə ayrılmış vəsait hesabına 1,463 milyon (bir milyon dörd yüz altmış üç min) manat, o cümlədən barama toxumlarının alınmasına 163,0 (bir yüz altmış üç) min manat, tut (çəkil) tinglərinin alınmasına 600,0 (altı yüz) min manat, fındıq pöhrələrinin alınmasına 700,0 (yeddi yüz) min manat ödənilsin.

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

2.1. tədarük olunan barama toxumlarının, tut (çəkil) tinglərinin və fındıq pöhrələrinin şəhər və rayonların tələbatı nəzərə alınmaqla, məhsul istehsalçılarına əvəzi ödənilmədən paylanılmasını təmin etsin;

2.2. bu Sərəncamın 2.1-ci bəndinə uyğun olaraq, barama toxumları, tut (çəkil) tingləri və fındıq pöhrələri əvəzi ödənilmədən paylanılan məhsul istehsalçıları, habelə şəhər və rayonların tələbatı barədə məlumatı Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Bakı şəhəri, 16 noyabr 2016-cı il.*

## Bakıda Dünya Xəbər Agentliklərinin V Konqresi keçirilib

*Azərbaycan noyabrın 16-dan etibarən iki gün ərzində Heydər Əliyev Fondunun və AZƏRTAC-ın birgə təşkilatçılığı ilə keçirilən nüfuzlu beynəlxalq media qurumlarının toplantılarına - Dünya Xəbər Agentliklərinin V Konqresinə, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) XVI Baş Assambleyasına və MDB Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının (İnformşura) XXII iclasına ev sahibliyi edib.*



Tədbirlərdə 80 ölkədən 100-ə yaxın xəbər agentliyinin dünyanın informasiya siyasətinin əsas istiqamətlərini müəyyənləşdirən 190-dək rəhbəri və təmsilçisi, media üzrə beynəlxalq ekspertlər, BMT - UNESCO-nun rəsmi nümayəndəsi, həmçinin regional media qurumlarının əməkdaşları iştirak etmişlər. Konqresdə dünyanın bütün qitələrindən xəbər agentlikləri təmsil olunmuşdur. Belə ki, Bakıya Asiyanın 31 ölkəsindən 39 agentliyin 77 nümayəndəsi, Avropanın 23 ölkəsindən 30 agentliyin 51 təmsilçisi, Afrika qitəsinin 16 ölkəsindən 16 agentliyin 25 nümayəndəsi, Amerika qitəsinin 7 ölkəsindən 9 agentliyin 17 əməkdaşı, habelə Avstraliyanın 3 agentliyini təmsil edən 4 nümayəndə gəlmişdir.

Dünya Xəbər Agentliklərinin V Konqresinin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev geniş nitq söyləyib.

Dövlətimizin başçısı bildirib ki, bu gün Azərbaycanda 40-dan artıq gündəlik, 200-dən artıq həftəlik və aylıq qəzetlər fəaliyyət göstərir. Ölkə ərazisində 10 milli, 1 peyk, 13 regional və 17 kabel televiziyası yayımlanır. Azərbaycan internetin tam azad olduğu ölkədir və əhalimizin 75 faizindən çoxu fəal internet istifadəçisidir. Ölkə əhalisinin sayı təqribən 10 milyon nəfərdir və Azərbaycanda sosial mediadan istifadə edənlərin sayı 2 milyondur. Bu rəqəm onu nümayiş etdirir ki, Azərbaycanda azad medianın inkişafı çox uğurlu olub. Biz məqsədimizə nail olmuşuq və bu 25 il ərzində siyasi və iqtisadi islahatlarla yanaşı, transformasiya keçmiş sahələrdən biri demokratik inkişaf istiqamətindəki islahatlar olub.

Cənab İlham Əliyev müstəqilliyin bərpa olunmasından sonra uzun illərdir üzləşdiyimiz problemlər sırasında istər tarixi, istərsə də hüquqi baxımdan Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağın Ermənistan tərəfindən işğalının olduğunu diqqətə çatdırıb. O, qeyd edib ki, Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. "Qarabağ" sözünün özü Azərbaycan mənşəlidir. Bu gün təkcə sovet dönəmində Azərbaycanın tərkibində muxtar vilayət olmuş Dağlıq Qarabağ deyil, ölkənin yeddi digər rayonu da erməni işğalı altındadır.

İşğal nəticəsində bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü deyən ölkə başçısı Ermənistanın xalqımıza qarşı etnik təmizləmə siyasəti həyata keçirdiyini və bu gün Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin bu ölkə tərəfindən işğal edildiyini söyləmişdir. Cənab İlham Əliyev çıxışında demişdir: "Bütün aparıcı beynəlxalq təşkilatlar müvafiq qətnamə və qərarlar qəbul ediblər. 1990-cı illərin əvvəlində BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edib ki, orada Ermənistan qoşunlarının Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunur. Ancaq onlar icra olunmamış qalır. Ermənistan həmin qətnamələrə məhəl qoymur, beynəlxalq ictimaiyyətə saymazlıq edir. Burada ciddi müzakirələr aparılmalı və addımlar atılmalıdır ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmləri yaradılsın. Eyni zamanda, qətnamələrin icrası ilə bağlı vahid icra üsulu olmalıdır. Çünki bəzi hallarda biz BMT Təhlükəsizlik Şurasının qətnamələrinin bir neçə gün içərisində icra edildiyinin şahidi oluruq. Bizə gəldikdə isə artıq 20 ildən çox vaxt keçir. Bu, qəbuledilməzdir. Bu, Azərbaycana qarşı ikili standartların göstəricisidir. Biz işğala son qoymalıyıq. **(Prezidentin geniş nitqi mərkəzi mətbuatın səhifələrində dərc olunub).**

Heydər Əliyev Mərkəzində iki gün davam edən Dünya Xəbər Agentliklərinin V Konqresi noyabrın 17-də işini başa çatdırıb və Konqresə sədrlik Səudiyyə Ərəbistanının Səudiyyə Press agentliyindən AZƏRTAC-a keçib.

AZƏRTAC 2016-2019-cu illərdə Dünya Xəbər Agentlikləri Konqresinə sədrlik edəcək.

***AZƏRTAC***